BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

№3 Humanitar elmlər seriyası 2015

UOT 94”16/18

ERMƏNİLƏRİN İRANDAN ŞİMALİ AZƏRBAYCAN TORPAQLARINA MƏQSƏDYÖNLÜ ŞƏKİLDƏ KÖÇÜRÜLMƏSİ (YENİ QAYNAQLAR İŞIĞINDA)

G.C.NƏCƏFLI
AMEA A.Bakıxanov adına Tarix İnstitutu
guntekin.cemil@gmail.com

Rusiya imperiyası hələ XVIII əsrin əvvəllərindən başlayaraq Azərbaycanın Osmanlı dövləti və İranla sərhədində yerləşən torpaqlarında bufer xristian dövləti yaratmaq niyyətində idi. XIX əsrin əvvəlində Cənubi Qafqazı ələ keçirmək uğrunda apardığı müharibələrdə Qacarlar İranına qalib gələn çar Rusiyası bu niyyətini həyata keçirməyə çalışdı. Lakin işğal olunmuş Cənubi Qafqaz bölgəsində ermənilərin sayca azlıq təşkil etməsi Rusiya imperiyasının bu siyasətinə zidd idi. Bu səbəbdən Rusiya imperiyası ermənilər kütləvi şəkildə Azərbaycanın Osmanlı dövləti və Qacarlar İranı ilə sərhədində yerləşən ərazilərə köçürməyə qərar verdi.

1828-ci ilin fevralında Qacarlar İranı və Rusiya imperiyası arasında bağlanmış Türkmənçay müqaviləsinin 15-ci maddəsinə əsasən İran ərazisində yaşayan ermənilərin kütləvi şəkildə Azərbaycan torpaqlarına köçürülməsi rəsmiləşdirildi. Məqalədə ilkin qaynaqlar əsasında bu köçürmə məsələləri araşdırılır.

Açar sözlər: Şimali Azərbaycan torpaqları, Rusiya imperiyası, Ədirnə müqaviləsi, Osmanlı imperiyası

Cənubi Qafqazı ələ keçirmək uğrunda apardığı müharibələrdə Qacarlar İranı və Osmanlı imperiyasına qalib gələn çar Rusiyası bu dövlətlərin ərazisində yaşayan ermənilər kütləvi surətdə Şimali Azərbaycan torpaqlarına köçürməyə başladı. İlk öncə bu proses Qacarlar İranının Rusiyanın işğal etdiyi Azərbaycan torpaqları sərhədində yaşayan ermənilərin köçürülməsi ilə başladı.

Ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi məsələsi hələ XVIII əsrin əvvəllərindən başlayaraq Azərbaycanın Osmanlı dövləti və İranla sərhədində yerləşən torpaqlarında bufer xristian dövləti yaratmaq niyyəti güdən Rusiya imperiyasının çoxdankı işğalçılıq planlarının tərkib hissəsi idi. Qriqorian missionerləri istisna edilməklə ermənilərin Azərbaycan torpaqlarına, o cümlədən İrəvan bölgəsinə köçüb gəlməsi prosesi 1441-ci ildə erməni katolikosluğunun Kilikiyadan Azərbaycan Qaraqoyunlu dövlətinin ərazisinə – Üçkilsəyə köçürülməsindən sonra başlamışdı. Erməni katolikosluğunun Qaraqoyunlu ərazisinə köçürülməsindən sonra Qriqorian kilsəsinin müxtəlif vasitələrlə Azərbaycan türklərinə məxsus torpaqları ələ keçirməsinə və zaman-zaman ermənilər burada yerləşdirməsinə baxmayaraq [16, 99-129] ermənilər Çuxursəd (İrəvan) bölgəsində say etibarilə həmişə cüzi azlıq təşkil edirdilər.

Məhz bu səbəbdən ermənilər tərəfindən Rusiyaya və Avropanın digər

xristian dövlətlərinə çatdırılan məlumatlarda Cənubi Qafqazda, o cümlədən Şimali Azərbaycanda yaşayan erməni əhalisinin sayı həmişə təhrif olunmuş və süni şəkildə şişirdilmişdir. Məsələn, 1783-cü ildə Rusiya nümayəndəsi Pavel Potyomkin İrəvan xanlığı ərazisində yaşayan ermənilərin adından ona məktub gətirən erməni nümayəndəsindən bu məktubun üzərində Üçkilsə katolikosunun möhür və imzasının niyə olmadığını soruşduqda: "katolikos bütün dünyaya səpələnmiş ermənilərin ruhani başçısı olduğundan o, öz möhürünü Ararat ölkəsində yaşayan bir qrup ermənininin məktubu üzərinə vura bilməz" cavabını vermişdi [17,107; 9,34]. Göründüyü kimi, erməni müəllifi V.Qriqoryan da bunu etiraf etməli olmuşdu.

Lakin işğal olunmuş Cənubi Qafqaz bölgəsində ermənilərin sayca azlıq təşkil etməsi Rusiya imperiyasının İran və Osmanlı sərhədində bufer xristian dövləti yaratmaq siyasətinə zidd idi. Bu səbəbdən Rusiya imperiyası ermənilər kütləvi şəkildə Azərbaycanın Osmanlı dövləti və Qacarlar İranı ilə sərhədində yerləşən ərazilərə köçürməyə qərar verdi.

Məqalə üzərində çalışarkən əsasən indiyə kimi Azərbaycan tarixşünaslığında istifadə olunmamış bir əsərdən – Münhen Unversitetinin professoru Fredrix Noymanın 1834-cü ildə Lepsiqdə nəşr etdirdiyi *"1828-ci ildə İran əyaləti Azərbaycandan miqrasiya olunmuş qırx min ermənininin Rusiyaya köçürülməsi tarixi"* [10] əsərindən istifadə etmişik. Məqsəd ermənilərin Cənubi Qafqaza gəlmə, daha doğrusu gətirilmə etnos olduğunu elmi ictimaiyyətin və geniş oxucu kütləsinin diqqətinə bir daha yeni qaynaqlar əsasında catdırmaqdan ibarətdir.

Ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi layihəsi hələ 1827-ci ildə A.Qriboyedovun başçılıq etdiyi Cənubi Qafqaz diyarının diplomatik dəftərxanasında işlənib hazırlanmışdı. Bu barədə İ.Yenikolopov yazır: "..ermənilərin arzuları ilə üst-üstə düşən köçürmə məsələsi tezliklə çar hökumətinin ən mühüm tədbirinə çevrildi. Bununla da, Rusiya hökumətinin İranla sərhədboyu ərazilərə 80 min kazakın köçürülməsi barədə əvvəllər hazırladığı layihə qüvvədən salındı". Bu layihəyə qarşı çıxan A.Qriboyedov yeni zəbt olunmuş ərazilərə ermənileri məskunlaşdırmağa üstünlük verdi [3, 128-129]. Alman tarixçisi F.Noyman isə "1826-cı ilin yayında başlanan Rusiya-İran müharibəsi I Pyotrun arzu etdiyindən daha çox artığını gerçəkləşdirmiş oldu. Qısa zamanda ələ keçirilən ərazilər yalnız rus silahının gücü ilə deyil, eyni zamanda ermənilərin ruslarla işbirliyi və yaxından yardımı hesabına əldə olundu, yazırdı [10, 34-35].

Rusiya tərəfinin təkidi ilə 1828-ci il fevralın 10-da Cənubi Azərbaycanın Türkmənçay kəndində Qacarlar İranı və Rusiya imperiyası arasında bağlanmış müqavilənin 15-ci maddəsinə əsasən İran ərazisində yaşayan ermənilərin kütləvi şəkildə Azərbaycan torpaqlarına köçürülməsi rəsmiləşdirildi [11, 130; 7, 31].

Türkmənçay müqaviləsinin 15-ci maddəsinə görə şah hökuməti müharibə dövründə öz dövlətinə xəyanət edərək ruslara xidmət etmiş şəxslərin (yəni ermənilərin – G.N.) Rusiya tabeliyində olan ərazilərə köçmələrinə mane olma-

malı idi. Bununla da, İranda yaşayan ermənilərə sərbəst surətdə Rusiyanın himayəsinə keçmək hüququ verildi [5, 339-341; 14, 85-86]. İranın hökumət və yerli hakimiyyət orqanlarının heç bir maneçiliyi olmadan, onların satlıq malına və ya əmlakına, əşyalarına hər hansı gömrük və vergi qoyulmadan daşınan əmlakını aparmaq və satmaq üçün bir il, daşınmaz əmlaka gəldikdə isə, onun satılması və ya onun haqqında öz xoşuna sərəncam (vəkalət) üçün 5 illik müddət müəyyən edildi [10, 45].

Rusiya imperiyası ermənilərin İrandan Şimali Azərbaycan torpaqlarına köçürülməsini mütəşəkkil həyata keçirmək üçün Peterburqda yaşayan polkovnik Lazaryevi 1827-ci il oktyabrın 19-da Təbrizə komendant təyin etdi [10, 45].

Oktyabrın əvvəlində artıq Lazaryev Cənubi Azərbaycan ermənləri arasında iş aparmaq üçün ayrılan dəstənin tərkibində idi. Oktyabrın 13-də rus qoşunlarının Təbrizə hücumu zamanı onun çağırışı ilə "ruhlanan" ermənilər həmişə olduğu kimi, yenə də yaşadığı dövlətə xəyanət edərək Təbrizin darvazalarını rus qoşunlarına açdılar. Oktyabrın 19-da Lazaryevin Təbrizin komendantı təyin edilməsi xəbəri ermənilər tərəfindən böyük sevinclə qarşılandı [10, 40-41].

General Paskeviç Tiflis qubernatoru Sinyaginə 1827-ci ilin dekabrında göndərdiyi məktubunda bildirirdi ki, Urmiya ətrafında yaşayan 15 min aysor və erməni Rusiyanın ələ keçirdiyi yeni bölgələrə köçmək istəyir. Sinyagin isə cavabında onların İrəvan və Naxçıvan əyalətlərində yerləşdirilməsini təklif etmişdi [3, 129-130]. İran ermənilərinin özləri də general Paskeviçin yanına gələrək onların Rusiya tərəfindən yeni ələ keçirilmiş vilayətlərə köçürülməsinə icazə istəyirdilər [12].

Diqqəti cəlb edən cəhət budur ki, İrəvan, Naxçıvan və Qarabağ ərazilərinin Azərbaycan torpaqları olduğunu yaxşı bilən erməni başbilənləri Rusiya işğallarından sonra məqsədyönlü olaraq mütəşəkkil surətdə və kütləvi halda ermənilərin məhz bu ərazilərə köçürülməsinə nail olmaq istəyirdilər. Hətta, Rusiya ilə Qacarlar İranı arasında sülh bağlandıqdan sonra general Paskeviç rus qoşunlarını Təbrizdən geri çəkərək orada olan bütün hərbi sursatı Qarabağ bölgəsi istiqamətə keçirmişdi [2].

Türkmənçay müqaviləsi imzalandıqdan bir neçə gün sonra – 1828-ci il fevralın 14-də polkovnik Lazaryev Türkmənçay kəndindən general Paskeviçə göndərdiyi rapotunda xatırladırdı ki, ermənilər müharibə zamanı Rusiyanın qələbəsi üçün mümkün olan hər şeyi ediblər və indi evlərini qoyub Rusiya tərəfə (yəni İrandan Şimali Azərbaycana – G.N.) köçmək istəyirlər. Ermənilərin sürətlə və rahat köçürülməsi üçün o, aşağıdakı təklifləri irəli sürürdü: "Birincisi, köçürmə işlərinə rəhbərlik etmək üçün Paskeviç ona yazılı təlimat versin və həmin sənəddə köçənlərə verilən güzəştlər göstərilsin; İkincisi, köçürmə işlərinə rəhbərlik etmək üçün erməni dilini bilən lazımi qədər zabitlər təyin etmək məsələsi onun ixtiyarına verilsin; Üçüncüsü, iqlim şəraitinə görə köçürmə işlərinin ləngiyəcəyi yerlərdə rus ordusu dayanıb gözləsin və ordu

köçənləri müşayiət etsin; Dördüncüsü, kasıb köçkünlər üçün xəzinədən vəsait ayrılsın" [1, док. 553, с.595; док. 561, с.603-604;6, 381-382].

General Paskeviç bu təkliflərin yerinə yetirilməsi üçün 1828-ci il fevralın 26-da Qazaros Lazaryana, 29-da isə İrəvan "Müvəqqəti idarə"sinə xüsusi təlimat göndərdi. Paskeviçin İrəvanın "Müvəqqəti idarə"sinə göndərdiyi xüsusi təlimatında İrandan köçürülən ermənilərin başlıca olaraq İrəvan və Naxçıvan əyalətlərinə və qismən də Qarabağda yerləşdirilməsi bildirilirdi [3,129-130].

Paskeviçin Lazaryevə verdiyi 19 maddəlik təlimatda göstərilirdi: "köçürülən xristianlardan ticarətlə məşğul olanlar şəhərlərdə yerləşdiriləcəklər ki, yenə ticarətlə məşğul olsunlar; kəndlilərə kifayət qədər münbit torpaq ayrılacaq və onlar 6 il müddətinə vergilərdən, 3 il müddətinə isə torpaq mükəlləfiyyətindən azad ediləcəklər; köçməyə hazır olan ailələrə veriləcək güzəştlər haqqında onlara xüsusi formada vərəqələr verilməlidir; köçürülənlər kəndlər üzrə dəstələrə ayrılmalı, hər dəstədə 150-dən 300-ə qədər ailə olmalıdır; köçürülənləri İrəvan və Naxçıvan əyalətlərinə istiqamətləndirmək lazımdır ki, həmin ərazilərdə xristian əhalisi mümkün qədər artırılsın; hər dəstəni müşayiət etmək üçün ermənicə bilən bir zabit və 2-5 kazak ayrılsın; köçkün dəstələri yola düşən kimi, dərhal İrəvan "Müvəqqəti idarə"sinə ailələrin sayı, onların yaşadıqları ərazinin iqlim şəraiti, məşğuliyyətləri, malik olduqları sürülər və sərhədə yetişəcəkləri təxmini vaxt haqqında xəbər göndərmək lazımdır. Kasıb ailələrə 10 gümüş manatı keçməmək şərti ilə köməklik göstərmək üçün 25 min rubl gümüş pul ayrılsın" [10,80-86; 4,100-107].

Paskeviçin İrəvan "Müvəqqəti idarə"sinə verdiyi 16 maddəlik təlimatda isə göstərilirdi: "Komitə köçürülən ailələrin sayına uyğun torpaq sahəsi ayırmalı və onların nəzərdə tutulan yerlərdə məskunlaşmasına rəhbərlik etməlidir. Komitə çalışmalıdır ki, köçürülən kəndlərin sakinləri əvvəlki ərazilərindəki kimi, yığcam şəkildə ayrıca və bir-birinə qonşuluqda yerləşdirilsinlər. Dağlıq şəraitində yaşayanlar dağlıq yerdə, düzənlikdə yaşayanlar isə düzənlikdə yerləşdirilməlidir ki, onlar mümkün qədər xəstəlik və ölümdən xilas olsunlar, onların adət-ənənələrinin və təsərrüfat vərdişlərinin saxlanılmasına şərait yaradılsın. Müsəlmanların yaşadıqları kəndlərdə xristianların yerləşdirilməsinə yol verməməli, xristianlardan ibarət ayrıca dairə və mahallar yaratmaq lazımdır. Müsəlman (xristian) kəndlərinin əhatəsində yaşayan xristianları (müsəlmanları) öz dindaşlarının yanına köçürmək lazımdır. Köçürülənlər mülkədar torpaqlarında deyil, dövlət torpaqlarında yerləşdirilməlidir" [6,382-383].

Qeyd etmək lazımdır ki, sonralar hər iki təlimatın köçürmədə könüllülük prinsipinin əsas tutulması barədə tələbləri tamamilə pozuldu. Belə ki, polkovnik Lazaryev və onun yerlərə göndərdiyi erməni nümayəndələri Türkmənçay müqaviləsini və onlara verilən təlimatı pozaraq ermənilər Şimali Azərbaycana könüllü deyil, zorla köçürməyə başladılar. Lakin Rusiyanın bufer erməni dövləti yaratmaq siyasətini başa düşən Abbas Mirzə Rusiya ilə İranın yeni sərhədləri boyunca ermənilərin kütləvi surətdə yerləşdirilməsindən cox narahat olmağa başladı. Buna görə də, o, İrandan ermənilərin kütləvi surətdə köçürül-

məsinə mane olmağa çalışırdı. Bunun üçün Abbas Mirzənin nümayəndələri yerlərdə olur, ermənilərə köçmədikləri halda 6 il müddətinə vergilərdən azad ediləcəklərini vəd edirdilər [1, док. 586, с.619-620.]. Bundan əlavə, Abbas Mirzə özü iki dəfə polkovnik Lazaryevə müraciət etmişdi ki, ermənilərin zorla köçürülməsi hallarına son qoysun və Türkmənçay müqaviləsinin şərtlərinə əməl etsin [10, 59-60, 65-66]. Abbas Mirzənin polkovnik Lazaryevə göndərdiyi ikinci məktubunda erməni polkovnikin ikiüzlü siyasətinin açıq-aydın ifşa olunduğunu izləmək mümkündür: "*İndi cənabınız Səlmasda qalır və qoşunlar da ordadır. Köçməyən kəndlərdən kazaklar və yasavullar vasitəsilə pul tələb edirsiniz, köçənlərə isə, eyni zamanda pul verirsiniz*" [65-66].

İranda yaşayan erməni əhalisinin Şimali Azərbaycan torpaqlarına zorla köçürülməsi onların öz içərisində də ciddi etirazlara səbəb olurdu. Bununla bağlı Lazaryev öz hesabatında general Paskeviçə yazırdı ki, "İranda yaşayan saysız-hesabsız aysorları razı salmaq üçün durmadan səy göstərməyimə və daha çox maddi yardım təklif etməyimə baxmayaraq, böyük zəhmət bahasına yalnız yüzə yaxın ailə köçürə bilmişəm" [10,75]. Bundan əlavə, Səlmas monastırının yepiskopu İsrail erməni əhalisinin zorla köçürülməsinə maneçilik törətdiyi üçün erməni arxiepiskopu Nerses 1728-ci il martın 17-də general Paskeviçə yazdığı məktubunda generaldan xahiş etdirdi ki, İsraili bu işdən çəkindirmək üçün Xoydakı yerli komendanta göstəriş versin və onu rütbəsindən məhrum edərək cəzalandırmaq üçün Üçkilsəyə göndərsin Həmin il martın 19-da general Paskeviçin Nersesə cavab məktubunda bu xahişin yerinə yetiriləcəyi vəd olunurdu [1, док. 568, с.607-608, док. 561, с.603-604].

Şimali Azərbaycana köçürülən kasıb erməni ailələrinə kömək üçün xəzinədən 25 min rubl gümüş pul ayrılmışdı. Polkovnik Lazaryev və ona təhkim edilən erməni zabitlərin vəzifəsi köçürülən ermənilərin Rusiya sərhədinə çatdırılması ilə bitirdi. Bundan sonrakı işlərə rəhbərlik İrəvan "Müvəqqəti idarə"si yanında xüsusi olaraq köçürülən ermənilərin yerləşdirilməsi üçün yaradılan Komitəyə həvalə edilirdi. Komitə keçmiş İrəvan xanlığı ərazisinə köçürülən erməni dəstələrini sərhəddə qarşılamaq üçün heyət göndərməli və həmin heyət onları yeni yaşayış məntəqəsinədək müşayiət etməli idi. Keçmiş Qarabağ xanlığı ərazisinə köçürülən ermənileri yerləşdirmək vəzifəsi isə gömrük hərbidairəsinin rəisi, knyaz Abxazova həvalə edilmişdi [10,85-86].

Ermənilərin İran ərazisindən Şimali Azərbaycan torpaqlarına köçürülməsinin həyata keçirilməsi haqqında məlumatı Lazaryevin 1829-cu il dekabrın 24-də qraf Paskeviçə yazdığı "*Yekun hesabatı"*nda izləmək mümkündür. Hesabata görə, köçürmə prosesi 1828-ci il fevralın 26-da başlanılmış və iyunun 11-də başa çatdırılmışdır. Bu qanlı siyasətin tezliklə həyata keçirilməsinə çox canfəşanlıq göstərən erməni generalı polkovnik Lazaryev şəxsən özü rəhbərlik etmişdir. Digər erməni zabitləri – 41-ci yeger polkunun podpolkovniki knyaz Melikov Üzümçü və onun ətrafındakı kəndlərin, gürcü qrenadyor polkunun podpokovniki knyaz Arqutinski-Dolqoruki Təbriz və onun ətrafındakı kəndlərin, Səlmas əyalətinin kollec asessoru Qamazov Marağa və Urmiya xanlığı

ətrafındakı kəndlərin, knyaz Şalikov isə Xoy xanlığında yaşayan ermənilərin Şimali Azərbaycan torpaqlarına köçrülməsində ona yaxından kömək etmişlər [10,47,51,57,60, 93-94].

Türkmənçay müqaviləsinə əsasən rus qoşunlarının geri çəkilmə prosesinə martın 8-dən etibarən Marağadan başlanıldığı üçün, ilk növbədə orada yaşayan erməniləri köçürmək nəzərdə tutulurdu. ...Artıq martın 9-da general Paskeviç və "Müvəqqəti Azərbaycan İdarə Heyəti"nin üzvləri Təbrizi tərk etdilər. Abbas Mirzə yenidən Təbrizdə öz hakimiyyətini bərpa etdi. Lazaryev isə vaxt itirmədən Təbrizin şimalındakı Sufiyan qəsəbəsinə – rus sərkərdəsinin yanına gəldi və köçürmə üçün yeni pul vəsaiti ayrılmasına icazə aldı [10,51-52]. Həmin il martın 9-da Lazaryevin Paskeviçə yazdığı rapotunda göstərilirdi ki, artıq 4500 erməni ailəsi köçürülərək, Araz çayının İran tərəfindəki sahilinə gətirilmişdir [1, док. 592, с.624-625].

Polkovnik Lazaryev Türkmənçaya yaxın olan kəndlərdə yaşayan ermənilərin hamısını keçmiş Qarabağ xanlığının ərazisinə yola saldı və ermənilərin köçürülməsi prosesini davam etdirmək üçün podpolkovnik Arqutinski-Dolqorukini Təbrizdə qoyaraq özü yenidən Marağaya yola düşdü [10,51-52]. Səlmas və Qəzvin xanlıqları ərazisindən gələn erməni ailələr isə Marağadan köçürülən dəstələrə qoşuldular [10,52-53]. Köçürmə işlərinin ləngidiyini görən polkovnik Lazaryev 1828-ci il martın 30-da ermənilərə müraciət etdi. Müraciətdə deyilirdi: "Siz orada (yəni Şimali Azərbaycan torpaqlarında – G.N.) xristianların məskunlaşdırıldığı yeni bir Atayurdu – Vətən əldə edəcəksiniz … xristian torpağı haqqında düşüncələr sizi coşdurmalıdır. İranın müxtəlif əyalətlərinə səpələnmiş xristianların bir yerə cəmləşdiyini görəcəksiniz. Tələsin! Vaxt qiymətlidir. Tezliklə rus qoşunları İranı tərk edəcək, bundan sonra sizin köçməyiniz çətinləşəcək və biz sizin təhlükəsiz köçməyinizə cavabdeh olmayacağıq. Azca itkiyə məruz qalsanız da, qısa zamanda hər şeyə nail olacaqsınız, özü də həmişəlik" [10,87-89]. Lazaryevin müraciətinin ermənicə mətni təcili olaraq İranda yaşayan bütün ermənilər arasında yayıldı.

Ermənilərin köçürülməsində canfəşanlıq edən polkovnik Lazaryev 1828-ci ilin aprel-may aylarında Urmiya, Xoy, təkrar Səlmas xanlıqlarında və İranın Kürdüstan ərazisində yaşayan ermənilərin də Şimali Azərbaycan torpaqlarına köçürülməsini təmin etdi [10,54-56]. Lazaryev İrandan təkcə erməniləri deyil, kürdləri də Şimali Azərbaycan torpaqlarına köçürməyə çalışırdı. O, 1828-ci il mayın 27-də göndərdiyi raportda təxminən 500 ailədən ibarət müsəlman kürdlərinin də İran Kürdüstanından İrəvan əyalətinə köçmək niyyətində olduğunu bildirmişdi. Lakin erməni zabitinin bu planı baş tutmadı. Çünki hələ fevralın 29-da Lazaryevə xüsusi məktubla tapşırılmışdı ki, müsəlmanların köçürülməsinə imkan verməsin [1, док. 598, с.629; 6,387].

Ermənilərin Şimali Azərbaycan torpaqlarına kütləvi surətdə köçürülməsini müxtəlif arxiv sənədləri təsdiq edir. Məsələn, Gürcüstandakı baş qərargah rəisinə təqdim edilən 1828-cı il 26 may tarixli raportda bildirilirdi: "Rusiyaya məxsus olan vilayətlərə xristianların köçürülməsi müvəffəqiyyətlə aparılır. Ar-

tıq Qarabağda 279, İrəvan vilayətində 948 ailə məskunlaşdırılmışdır; polkovnik Lazaryevin vədinə görə köçənlərin sayı 5 min ailəyə çatdırılmalıdır" [12].

İ.Şopenin məlumatına görə, İrandan köçürülən ermənilərdən 366 ailə (1715 nəfər) İrəvan, 265 ailə (1110 nəfər) Naxçıvan və 36 ailə (182 nəfər) Ordubad şəhərlərində yerləşdirildi [15, 636-638].

Qarabağ xanlığının ləğv edilməsi zamanı onun əhalisinin etnik tərkibi Qafqazdakı rus qoşunlarının baş komandanı A.P.Yermolovun (1816-1827) göstərişi ilə tərtib olunan "Təsvir"də əksini tapmışdır. Hələ bu sənədin tərtibinə qədər (1805-1822) Qarabağda aparılmış ermənilərşdirmə siyasətinə baxmayaraq, statistikanı (1593-cü ildən başlayaraq) müqayisə etsək görərik ki, burada əhalinin əksəriyyətini yenə də azərbaycanlılar təşkil edirdi. "Təsvir"ə görə, Qarabağ əyalətində olan 20095 ailədən 15729-u azərbaycanlı (1111-i şəhərdə, 14618-i kənddə), – 4366-sı erməni, o cümlədən alban idi (421-i şəhərdə, 3945-i kənddə). Yeri gəlmişkən, bu ermənilərin böyük əksəriyyəti qriqorianlaşdırılmış və ermənilərşdirilmiş keçmiş albanlar idilər. Ermənilərin kütləvi şəkildə Qarabağa köçürülməsi nəticəsində burada yeni erməni kəndləri (Marağalı, Canyataq və s.) meydana gəlməyə başlamışdı [7,32].

Lazaryevin özünün hesabatından isə məlum olur ki, üç ay yarım ərzində İran ərazisindən 8249 erməni ailəsi İrəvan, Naxçıvan və Qarabağ əyalətinə köçürülmüşdü, bu da ən azı 40 min nəfər demək idi; köçürmə işlərinə xəzinədən 14000 manat qızıl, 400 manat gümüş pul xərclənmişdi; köçmək istəyən 1500 erməni ailəsi İranda qaldı. Çünki Lazaryev köçürmə üçün ayrılan vaxt başa çatdığından onları köçürməyə imkan tapmamışdı [10,106]. Lakin nəzərə almaq lazımdır ki, Lazaryevin hesabatında İrandan Şimali Azərbaycan torpaqlarına köçürülən erməni ailələrinin miqdarı tam dolğunluğu ilə əks olunmamışdır. Məsələn, rus tədqiqatçısı N.A.Smirnov İrandan 90 min nəfər ermənin köçürülərək Azərbaycan torpaqlarında məskunlaşdırıldığını yazır [13,180].

Lazeryevin tapşırığını yerinə yetirən Qamazov öz hesabatında bildirirdi ki, İrəvan əyalətinə köçürülən ermənilərin əksəriyyəti buranın ən yaxşı mahallarında - Şərur, Dəvəli, Gərniçay, Zəngi, Abaran, Qırxbulaq, Dərəçiçək və Araz çayının İran tərəfində yerləşən hissəsindəki Səəd Çuxurunda (Çuxursəd), yəni Sürməli mahalında yerləşdirildi. 300 dən artıq sənətkar erməni ailəsi İrəvanda yerli şəhərlilərin – azərbaycanlıların evlərində yerləşdirildi [3,135-136; 8]. Səlmas və Xoy xanlıqlarından köçürülən 200-dək erməni ailəsi isə İ.Arqutinskinin göstərişi ilə Sürməli mahalına göndərildi [3,141; 8]. Beləliklə, İrandan köçürülən ermənilər İrəvan, Naxçıvan və Ordubad şəhərlərində (Naxçıvanda – Dərələyəz, Şərur, Naxçıvan və Azadciran şəhərində; İrəvanın mərkəzi mahallarında – Gərnibasar, Zəngibasar, Dərəçiçək, Qərbibasar, Abaran və başqa yerlərdə) məskunlaşdırıldılar [6,388].

Köçürülənlərin dövlət torpaqlarında yerləşdirilməsi haqqında Paskeviçin verdiyi təlimata baxmayaraq, ermənilərin əksəriyyəti Azərbaycan mülkədarlarına məxsus torpaqlarda yerləşdirildi. Özü də ermənilərə bu zaman yaylaqlarda olan azərbaycanlıların evləri paylandı. Yaylaqlardan qayıdan azərbaycanlılar

isə ev-eşiksiz qaldı. Bunu hətta mənşəcə erməni olan rusdilli müəlif İ.Yenikolopov da təsdiq edərək öz əsərində yazırdı: "Türkmənçay müqaviləsi imzalanandan sonra ayrı-ayrı qrupların köçürülməsi eybəcər formada həyata keçirilməyə başlandı: xüsusi torpaq fondu ayrılmadığından yeni əhalinin (yəni ermənilərin – G.N.) əksəriyyəti yaylaqda olan kəndlilərin (Azərbaycan türklərinin – G.N.) evlərində yerləşdirildi" [3,135].

Bundan başqa, müəllifi A.Qiboyedov olduğu ehtimal edilən "Ermənilərin İrandan bizim vilayətlərə köçürülməsi haqqında qeydlər"də göstərilir ki, "ermənilərin mülkədar torpaqlarında yerləşdirilməsi, onların müsəlmanların yerini dar etməsi bir yana, hələ üstəlik onlara güzəştlər də verildi. Halbuki, ziyan çəkən tərəf müsəlmanlar idi. Əslində, ermənilər deyil, buranın müsəlmanlarını köçkün hesab etmək lazımdır. Çünki müharibə zamanı İrəvanın Sərdarı onları döyüş meydanından köçürmüşdü və ən kasıb vəziyyətdə yaşayırdılar. Ermənilər köçürülən zaman müsəlman ailələrinin əksəriyyəti yaylaqda idi və gəlmə ermənilərin onların evlərində yerləşdirilməsindən xəbərləri yox idi" [1, док. 618, с.642-644]. Qafqaz Arxeoqrafiya Komitəsinin verdiyi məlumatda A.Berje heç bir mənbəyə əsaslanmadan bu yazıların A.Qriboyedova məxsus olduğunu göstərir. Qafqaz Toplusunun 30-cu cildində bu yazıların A.Qriboyedova məxsus olması fikri təkrar olunur. Lakin Rusiya imperiyasının ermənilər Şimali Azərbaycan torpaqlarına köçürməsi siyasətinin tərəfdarı və bu siyasətin həyata keçirilməsində mühüm rol oynayan, ermənipərəst A.Qriboyedovun real həqiqəti əks etdirən bu yazının müəllifi olması qeyri-real görünür. Məhz buna görə də, İ.Yenikolopovun verdiyi məlumatı daha düzgün hesab etmək olar. Rusdilli qaynaqlardan fərqli olaraq İ.Yenikolopov öz əsərində Ermənistan SSR Mərkəzi Dövlət arxivində saxlanılan sənədlərə əsasən Rusiya hökumətinin bu qanlı siyasətini açıqlayan həmin yazıların İ.Qriboyedova deyil, xüsusi məqsədlə göndərilən ali təhsilli hərbçi-jurnalist D.E.Zubarevə məxsus olduğunu göstərir. Bundan əlavə, müəllifin verdiyi məlumata görə, D.E.Zubarev 1829-cu ilin mayında köçürmə komitəsini tənqid edərək yazırdı ki, heç bir yerdə lazım olan informasiyanı əldə etmək mümkün deyil. Mülklərin kimə məxsus olduğu bəlli deyil. O, öz mülahizələrində müəyyən edir ki, köçürülüb gətirilən ermənilərin əksəriyyəti əkinçilər və sənətkarlardır. Lakin köçürülənlərin sayı barədə lazımi qeydiyyat aparılmayıb [3,140].

Təqribi hesablamalara görə ermənilərin köçürülməsi İrana, əsasən Cənubi Azərbaycana 32 mln. man. ziyan vurmuşdu. Köçürmə prosesinin bütün ağırlığı yerli əhalinin üzərinə düşmüş, onların vəziyyətini kəskin şəkildə pisləşdirmişdi. Köçürülmə Şimali Azərbaycanda da azərbaycanlıların məhsuldar torpaqlarının əllərindən çıxması ilə nəticələnmişdi. Köçürmənin xərcləri demək olar ki, Azərbaycanın hesabına həyata keçirilmişdi [14,94]. Hətta, Qacarlar İranından ermənilərin Şimali Azərbaycana köçürülməsində fəallıq göstərən hərbçilər və din xadimləri Rusiya imperiyası tərəfindən mükafatlandırıldılar.

Göründüyü kimi, Rusiya imperiyasının ermənilərin kütləvi şəkildə Qacarlar İranından Şimali Azərbaycan torpaqlarına köçürməsi siyasətini həm

çarizmin imperiyanın İranla sərhədində özünə etnik və sosial dayaq yaratmaq siyasətini əks etdirir və həm də, azərbaycanlıların öz ata-baba torpaqlarından sıxışdırıb çıxarmaq məqsədini güdürdü. Bundan əlavə, bu qanlı siyasətin həyata keçirilməsi həm də "erməni dövləti"nin yaradılmasına hazırlıq idi. Tarixi hadisələrin sonrakı gedişi bir daha sübut etdi ki, İran ermənilər Şimali Azərbaycana xüsusi məqsədlə – onlara burada "Yeni Vətən" yaradılması məqsədilə köçürülmüşdü.

ƏDƏBİYYAT

1. АКАК, т.VII. Тифлис, 1878.
2. BOA HH, 1088/44264 – Ərzurum valisi Qalib paşadan Sədarətə göndərilən 14.05.1828 tarixli məktub.
3. Ениколопов И. Грибоедов и Восток. Ереван: 1954.
4. Глинка С. Описание переселения армян азербайджанских в переделы России. М.: 1831.
5. Грибоедов А.С. Записка о переселении армян из Персии в наши области. Соч. в двух томах, т.II. М., 1971.
6. İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi (Kollektiv monoqrafiya). Bakı: 2009.
7. Mahmudov Y. Şükürov K. Qarabağ. Real tarix. Faktlar. Sənədlər. Bakı: 2005.
8. Məmmədova İ. XIX əsrin əvvəllərində Rusiyanın Azərbaycanda etnodemoqrafik vəziyyəti dəyişmək siyasətinin Azərbaycanın sonrakı taleyinə təsiri // Tarix və gerçəklik (Azərbaycan tarix qurumu). Bakı, 2008, №1(3), s.94.
9. Наджафли Г. Азербайджан в XVIII-XIX веках. Бишкек: 2010.
10. Neumann F. Geschichte der Übersiedlung von vierzigtausend Armeniern, welche im Jahre 1828 aus den persischen Provinz Adarbaidschan nach Russland auswanderten. Leipzig: 1834.
11. Полное собрание законов Российской империи (ПСЗРИ). Собр. второе, т.III. 1828, СПб.: 1830. N:1794.
12. РГВИА, ф.ВУА, дело, 978, л.19.
13. Смирнов. Н.А. Политика России на Кавказе в XVI – XIX веках. М.: 1958.
14. Şükürov K. Türkmənçay 1828 (tarixi xronika). Bakı: 2006.
15. Шопен И.И. Исторический памятник состояния армянской области в эпоху её соединения к Российской империи. СПб., 1852.
16. Սիմէօնէ Երեւանցիոյ: Ջամբռ: Գիրք, որ կոչի յիշակարան արձանացուցիչ, հայելի եւ պարունակող բնավից որպիսութեանց Սրբոյ Աթոռոյս, եւ իւրոյ շրջակայից վանօրէիցն: Վաղարշապատ: ՌՀԻԳ: [Simeon İrəvanlı. Cambr. Müqəddəs Üçmüədzin kilsəsinin və ətraf monastırların toplusunun müffəssəl aynası və xatirə kitabı. Vaqarşapad: 1873].
17. Գրիգորյան Վ.Ռ. Երեվանի խանությունը 18-րդ դարի վերջում, Երեվան, 1958: [Qriqoryan V.R. İrəvan xanlığı XVIII əsrin sonlarında (1780- 1800), İrəvan: 1958].

ЦЕЛЕНАПРАВЛЕННОЕ ПЕРЕСЕЛЕНИЕ АРМЯН ИЗ ИРАНА НА ЗЕМЛИ СЕВЕРНОГО АЗЕРБАЙДЖАНА (НА ОСНОВЕ НОВЫХ ИСТОЧНИКОВ)

Г.Дж.НАДЖАФЛИ

РЕЗЮМЕ

Начиная с начала XVIII века Россия стремилась создать на границе с Ираном и Османским государством буферное христианское государство. Одержав в начале XIX века победу в войнах за Южный Кавказ над Гаджарским Ираном, царская Россия начала претворять в жизнь свои планы. Однако, малочисленность армян на захваченных Россией территориях Южного Кавказа противоречило данной политике. Поэтому Россия решила начать массовое переселение армян с приграничных с Османским государством и Гаджарским Ираном территорий. Массовое переселение армян с территории Ирана на азербайджанские земли было оформлено согласно 15 статье Туркменчайского договора, заключенного в феврале 1828 года между Гаджарским Ираном и Российской империей. В статье вопрос данного переселения исследуется на основе первоисточников.

Ключевые слова: земли Северного Азербайджана, Российская империя, Адрианопольский договор, Османская империя

THE DELIBERATE RESETTLEMENT OF THE ARMENIANS FROM IRAN TO NORTHERN AZERBAIJANI LANDS (IN THE LIGHT OF NEW SOURCES)

G.J.NAJAFLİ

SUMMARY

Since the beginning of the XVIII century, the Russian Empire was going to create a buffer Christian state on the border areas of Azerbaijan with the Ottoman Empire and Iran. At the beginning of the XIX century Russia who won the Gajars Iran in the war for seizure of the South Caucasus tried to realize this intention. However, Armenians being in minority in the occupied South Caucasian region were against to the policy of the Russian Empire. Therefore, the Russian Empire decided to implement the mass resettlement of the Armenians on border areas of Azerbaijan with the Ottoman Empire and Iran.

Under Article 15 of the Turkmanchay Treaty signed in February of 1828 between the Qajar Iran and the Russian Empire, the mass resettlement of the Armenians living in Iran on the Azerbaijani lands was made official. The article examines the issues of the resettlement on the basis of the original sources.

Key words: North Azerbaijani lands, Russian Empire, Edirne Treaty, Ottoman Empire.